2026. Volume 10, Number 1 *Pages 91-97*

UOT: 81′374.3:81′276.6
DOI: https://doi.org/10.30546/09081.2026.1.1032

1960-70-Cİ İLLƏRDƏ TEXNİKİ TERMİNOLOJİ LÜĞƏTLƏRİN TƏRTİBİ PRİNSİPLƏRİ

Aytən Hüseynova-Qəhrəmanlı
AMEA Nəsimi adına Dilçilik İnstitutu
aytenhuseynova88@gmail.com

Məqalə haqqında məlumat

Məqalənin tarixçəsi:
Daxil olub: 2025-12-09
Təkrar işlənmiş formada daxil olub: 2025-12-22
Qəbul edilib:2026-01-24
Onlayn əlçatandır: 2026-06-19

Açar sözlər:
Azərbaycan dili, 1960-70-ci illər, texniki terminoloji lüğətlər, tərtib prinsipləri.

Xülasə

1960-70-ci illərdə Azərbaycanda texniki sahə ilə bağlı terminoloji lüğətlərin tərtib olunması dilçilik tədqiqatlarının əsas istiqamətlərindən biri olmuşdur. Həmin dövrdə nəşr olunan texniki terminoloji lüğətlər kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi, fizika, rabitə, elektrik intiqalı və sənaye qurğularının avtomatlaşdırılması, avtomatik idarəetmə, radioelektronika və riyaziyyat sahələrində işlənən terminləri əhatə edir. Aid olduqları sahələrlə bağlı elmi ədəbiyyatda, mətbuatda, dərsliklərdə işlənən terminoloji vahidlər sistematik şəkildə toplanmış və lüğətlərə daxil edilmişdir. Texniki terminoloji lüğətlərin tərtibi əsasən elmi prinsiplərə uyğun aparılmışdır. Əksər lüğətlərdə terminlər rus, ingilis və Azərbaycan dillərində verilmiş, həmin terminlərin qarşısında sıra nömrələri qeyd edilmişdir. Bütün lüğətlər tərcümə prinsipinə əsaslandığı üçün kitabda terminlərin izahları verilməmişdir.

2521-6333/© 2026 The Author(s). Published by Baku Engineering University.
This is an open access article under the CC BY 4.0 license (http://creativecommons.org/licenses/by/4.0/).

PRINCIPLES OF COMPILING DICTIONARIES OF TECHNICAL TERMINOLOGY IN THE 1960-70S

In the 1960s and 1970s, compiling dictionaries of technical terminology was a key linguistic research topic in Azerbaijan. Dictionaries of technical terminology published at that time covered terminology used in the fields of agricultural mechanization and electrification, physics, communications, power transmission and industrial automation, automatic control, radio electronics, and mathematics. Terminological units used in scientific literature, the media, and textbook in relevant fields were systematically collected and included in the dictionaries. The compilation of technical terminology dictionaries was carried out primarily in accordance with scientific principles. Most dictionaries listed terms in Russian, English and Azerbaijani, and were assigned ordinal numbers. Since all the dictionaries were based on translation, no explanations of the terms were provided in the book.

Keywords: Azerbaijani language, 1960-70s, technical terminological dictionaries, principles of compilation.

Giriş. II Dünya Müharibəsindən sonra elmin müxtəlif sahələrində müşahidə olunan durğunluq Azərbaycan dilinin terminologiyasına da öz təsirini göstərmişdir. Belə ki, ölkədə ayrı-ayrı elm sahələri üzrə terminoloji lüğətlərin hazırlanmaması, terminoloji fəaliyyətin sistemli şəkildə təşkil olunmaması və s. kimi çatışmazlıqların əsas səbəbi bu proseslərə institusional nəzarətin lazımi səviyyədə olmaması ilə bağlı idi.

Terminoloji sahədə mövcud çətinliklər kəmiyyət, eləcə də keyfiyyət baxımından elmi müəssisələr, ali məktəblərdə elm adamları qarşısında Azərbaycan dilində yeni sahə terminlərinin yaradılması və sabitləşməsi zərurətini böyük bir problem kimi qoymuşdur.

Bu dönəmlərdə xarici dərsliklər və monoqrafiyalar Azərbaycan dilinə tərcümə olunur, alim və müəllimlər tədris prosesinin tələblərinə uyğun dərsliklər yazırdılar. Həmin istiqamətdə görülən işlərin elmi və metodoloji cəhətdən tam şəkildə təşkil olunması üçün terminoloji lüğətlərin tərtib edilməsi labüd idi. Bu məqsədlə 1952-ci ildə AKP Mərkəzi Komitəsinin qərarına əsasən mövcud terminoloji problemləri həll etmək, ali təhsil müəssisələrində həyata keçirilən terminoloji fəaliyyətə nəzarət etmək üçün Azərbaycan SSR Elmlər Akademiyası Rəyasət Heyətinin yanında Terminologiya Komitəsi yaradılmışdır. Terminologiya Komitəsinin nəzdində ayrı-ayrı sahələr üzrə terminoloji bölmələrin təşkili və hər bir bölmənin öz tematik istiqamətinə uyğun olaraq terminlərin yaradılması, nizama salınması üçün elmi prinsiplərin müəyyənləşdirilməsi qarşıda duran əsas vəzifələrdən idi. Terminologiya Komitəsinin həyata keçirdiyi işlərin nəticəsi olaraq Azərbaycanda müxtəlif elm sahələrinə aid terminoloji lüğətlərin konsepsiyası işlənib hazırlandı.

Əsas hissə. 1960-cı illərdə terminoloji bölmələrin məhsuldar fəaliyyətini təmin etmək üçün Azərbaycan SSR EA Rəyasət heyəti genişmiqyaslı işlər görmüşdür. Həmin illərdə terminologiya məsələsinə xeyli diqqət yetirilmiş, terminlər sistemə salınmış, yenidən təkmilləşdirilmiş və elmin demək olar ki, bütün sahələrinə aid bir çox böyük həcmli terminoloji lüğətlər tərtib edilmişdir. Görülən mühüm işlərdən biri də TK-nın texniki bölməsinin öhdəsinə düşürdü. Texniki terminologiya nisbətən az işlənmiş sahə olduğu üçün terminlərin sabitləşməsinə ehtiyac var idi. Azərbaycan dilçiliyində texniki terminologiyanın inkişafı istiqamətində aparılan işlər daha da intensivləşmişdir. Komitənin qəbul etdiyi qərara əsasən "*Kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsinə dair texniki terminlər*" (1963), "*Fizika terminləri lüğəti*" (1965), "*Rabitə terminləri lüğəti*" (1966), "*Elektrik intiqalı və sənaye qurğularının avtomatlaşdırılması terminləri lüğəti*" (1966), "*Avtomatik idarəetmə üzrə terminologiya lüğəti*" (1977), "*Rusca-azərbaycanca-ingiliscə radioelektronika terminləri lüğəti*" (1978), "*Riyaziyyat terminləri lüğəti*" (1979) lüğətlərin işlənib hazırlanması texniki terminlərin unifikasiya və standartlaşdırılmasında mühüm rol oynamışdır.

1963-cü ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun əməkdaşları N.M.Əhmədov, S.F.Məmmədov, S.H.Bağırov və M.M.Bağırzadə tərəfindən "*Kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsinə dair texniki terminlər*" ikidilli lüğəti hazırlanmışdır (Əhmədov və b., 1963). Qeyd edək ki, Azərbaycan dilində bu sahə ilə bağlı terminoloji lüğət ilk dəfə 1959-cu ildə tərtib edilmişdir.

49 səhifəlik həmin lüğətdə 2 minə yaxın termin verilmişdir ki, bu da kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi sahəsində işlənən texniki terminlərin az bir hissəsini təşkil edir. Burada terminlər tərtib prinsiplərinə uyğun olaraq əlifba ardıcıllığı ilə sistemli şəkildə düzülmüş və böyük hərflə yazılmışdır. Səhifələr iki sütuna bölünmüş, ilk sütunda rusca terminlər, ikinci sütunda isə bu terminlərin Azərbaycan dilində qarşılıqları verilmişdir. Məsələn,

Скирдование	tayalama
Коробка передач	ötürücülər qutusu
Ящик сопротивления	müqavimət qutusu

Lüğətdə beynəlxalq terminlər olduğu kimi saxlanılmışdır: *sinxronizator, skrepper, solenoid, starter, kompressor, konveyer, kondensator, kondensasiya, qreyder, dinamoqraf, dinamometr, detonasiya, defliasiya, biter, bolt, buldozer, ekssentrik, elevator, reflektor* və s.

Texniki elmlərin inkişafında mühüm nailiyyətlərin baş verdiyi sahələrdən biri də fizika elmi idi. Sovet hakimiyyəti dövründə Azərbaycan dilində fizika elminə aid terminologiyanın yaradılması və inkişafı sahəsində mühüm tədbirlər həyata keçirilmişdir. Belə ki, dosent M.A.Abdullayev

tərəfindən 1935-ci ildə xüsusi "*Fizika terminləri lüğəti*", 1939-cu ildə isə SSRİ Elmlər Akademiyası Azərbaycan filialı tərəfindən A.Abbaszadə və Z.Əlizadənin tərtibatçılığı ilə növbəti "*Fizika terminləri lüğəti*" nəşr olunmuşdur.

Buna baxmayaraq sonrakı illərdə müvafiq sahənin inkişafı ilə bağlı olaraq bir sıra yeni terminlər yaradılmış, mövcud terminlərin mənası daha da konkretləşmiş, əvvəlki dönəmlərdə dildə işlədilən bir sıra terminlər isə artıq köhnəldiyi üçün istifadədən çıxmışdır. Bu səbəbdən fizika terminlərinin daha əhatəli və mükəmməl lüğətini tərtib etmək zərurəti yaranmışdır. Beləliklə, Azərbaycan SSR Elmlər Akademiyasının Fizika İnstitutu tərəfindən 1965-ci ildə H.B.Abdullayev, M.A.Abdullayev, Ə.X.Xəlilov, L.M.İmanov, K.P.Məmmədov, İ.G.Kərimov, M.Ə.Talibi və F.Q.Məhərrəmovanın tərtibatçılığı ilə hazırlanmış növbəti "*Fizika terminləri lüğəti*" mühüm əhəmiyyətə malik idi (Abdullayev və b., 1965). Lüğət məzmun baxımından əsasən fizika sahəsinə aid olan elmi anlayışları və terminləri əhatə edir.

Həmin ikidilli lüğətdə əvvəlcə rusca terminlər verilmiş, qarşısında isə onların Azərbaycan dilindəki qarşılığı müəyyənləşdirilmişdir. Məsələn, *искровой разряд* – qığılcım boşalması, *натяжение внутреннее* – daxili gərilmə, *передача зубчатая* – dişli ötürmə, *раствор пересыщенный* – ifrat doymuş məhlul.

Kitabda beynəlxalq anlayışı ifadə edən terminlər olduğu kimi saxlanılmışdır: *absorbsiometr, apeks, apertometr, aplanat, apoxromat, berillium, berklium, verteks, boksit, ftor, qallium, qalvanostegiya, qradiyent, kadmium, ittrium, kaleydoskop, parallaks, impuls, induktans, invar, maqnetoskop, neqatron, neytretto* və s.

Diqqət çəkən məqamlardan biri də bəzi alınma terminlərin və onların azərbaycanca qarşılıqlarının paralel şəkildə verilməsidir. Məsələn, *импеданц – impedans, zahiri müqavimət; гравитация – qravitasiya (cazibə) tərəzisi, радиация – radiasiya, şüalanma; фотоэффект избирательный – seçkili (selektiv) fotoeffekt* və s.

Buraya fizika sahəsi ilə bağlı eponim terminlər də daxil edilmişdir: *Bodo aparatı, Morze aparatı, Araqo-Frenel təcrübəsi, Bek effekti, Bekkerel qanunu, Bekman termometri, Benson üsulu, Benediks effekti, Betti-Maksvell teoremi, Boyl-Mariot qanunu, Boze-Eynşteyn statistikası, Boyl nöqtəsi, Qaliley çevrilməsi* və s.

Lüğətdə beynəlxalq termin elementlərlə formalaşan leksik vahidlər də yer almışdır:

foto– fotosintez, fotofon, fototropiya, fotoelektrik, fototranzistor, fotoelektron, fotoeffekt, fotopirometr.

stereo – stereoizometriya, stereotip, stereoskop, stereokimya, stereomikrometr, stereokomparator.

radio – radioqram, radiozond, radioqoniometr, radioaktivlik.

izo – izoperm, izosəth, izoterm, izopyesta, izofaza, izoxron, izotomeoqraf, izopotensial, izomorfizm, izomerlik.

Bu dövrdə sürətlə inkişaf edən sahələrdən biri də rabitə, xüsusilə elektrik rabitəsi texnikası və onunla sıx bağlı olan radioelektronika idi. Bu sahəyə aid nəzəri və praktiki biliklərə yiyələnmə ehtiyacı hər gün daha da artmaqda idi. Lakin Azərbaycan dilində rabitə texnikası sahəsində terminoloji boşluğun mövcudluğu işdə xeyli çətinlik yaradırdı. Bu da rabitə işçilərinin, mühəndis və ali məktəb tələbələrinin rabitə texnikası ədəbiyyatından səmərəli şəkildə istifadə edə bilməməsinə səbəb olurdu. Məhz bu cəhəti nəzərə alaraq Bakı Rabitə Elektrotexnikumunun

müəllimləri mühəndis Q.M.Tağıyev və dil-ədəbiyyat müəllimi İ.S.Mirzəbəyov bu işi öz öhdələrinə götürərək 1966-cı ildə S.Z.Axundovun redaktorluğu ilə 172 səhifəlik "*Rabitə terminləri lüğəti*" nəşr etdirmişdirlər (Tağıyev, 1966:172).

Qeyd edək ki, "*Rabitə terminləri lüğəti*" ilk dəfə olaraq 1959-cu ildə əlyazması hüququnda nəşr edilmişdir. Həmin mərhələdən sonrakı vaxt ərzində terminlər müəyyən qədər də təkmilləşdirilmiş və nizama salınmışdır.

Kitabda rusca terminlər və qarşısında bu sözlərin Azərbaycan dilində olan ekvivalentləri sistemli şəkildə verilmişdir. Məsələn, *единица поглощения звука – səsudma vahidi, кнопка рычага – ling düyməsi, колесико звездчатое – ulduzvarı çarx, колонка звуковая – səs sütunu* və s.

Lüğətdə rabitə işçiləri və Bakı Rabitə Elektrotexnikumunun müəllimlərinin dərslərdə uzun müddət istifadə etdikləri terminlər və ümumən hüquq qazanmış beynəlxalq terminlər olduğu kimi saxlanılmışdır. Məsələn, *abqreyfer, absorbsiya, arborit, heksod, heptod, generator, audion, dupleks, ikonoskop, invertor, kollektor, mikron, mikşer, modulimetr, modulyator, permalloy, perfokart, perforasiya, radar, simpleks, sinxroskop, teleqraf, emissiya, emiter, eskapon, erikofon* və s.

Burada həmçinin beynəlxalq termin elementlərlə milli sözlərin birgə işləndiyi terminlər də əks olunmuşdur: *elektrodartıcı, elektrooynadıcı, radioküləkölçən, radioyayım, radiopartlayıcı* və s.

Azərbaycan SSR EA yanında Terminologiya Komitəsi tərəfindən 1966-cı ildə Azad Əfəndizadənin tərtibatçılığı ilə "*Azərbaycanca-rusca-ingiliscə elektrik intiqalı və sənaye qurğularının avtomatlaşdırılması terminləri lüğəti*" nəşr olunmuşdur.

"*Elektrik intiqalı və sənaye qurğularının avtomatlaşdırılması terminləri lüğəti*" sənaye qurğularının avtomatlaşdırılmasına, avtomatlaşdırılmış elektrik intiqalının idarə olunması və tənziminə dair elmi-texniki dərsliklərdə işlədilən əsas terminləri əhatə edir. Burada həmçinin avtomatlaşdırılmış elektrik intiqalı ilə bağlı əsərlərdə rast gəlinən nəzəri elektrotexnika, hesablama texnikası, riyaziyyat, elektrik maşınları, yarımkeçiricilər texnikası və elektronika terminləri də yer almışdır (Əfəndizadə, 1966:154).

Lüğətin sözlüyü azərbaycancadır və 1500 termini əhatə edir. İlk olaraq terminlər azərbaycanca, onların qarşısında isə rus və ingilis dillərində ekvivalentləri verilmişdir. Məsələn, *biroxlu qoşulma* – rus. одноосное включение – ing. single-axis switching; azərb. *düyüm nöqtəsi* – rus. узловая точка – ing. node point; azərb. *idarəetmə ardıcıllığı* – rus. последовательность управления – ing. *control sequence* və s. Kitabın sonunda rus və ingiliscə terminlər əlifba sırası ilə verilmişdir ki, bu da üç dildə (Azərbaycan-rus-ingilis) yazılmış texniki ədəbiyyatdan istifadəni asanlaşdırırdı. Əlifba sırası ilə düzülmüş həm rus, həm də ingiliscə terminlərin azərbaycanca qarşılığını terminin sıra nömrəsinə əsasən axtarmaq olar. Lüğətdə ingiliscə terminlərin qarşısında transkripsiyası da verilmişdir.

1977-ci ildə Ümumdünya Federasiyası Terminologiya və Standartlaşdırma Komitəsinin SSRİ Milli Komitəsinin təklifi əsasında altıdilli *"Avtomatik idarəetmə üzrə terminologiya lüğəti"* (rusca-ingiliscə-azərbaycanca-qırğızca-türkməncə-özbəkcə) nəşr olunmuşdur. İFAK-ın 1966-cı ildə Londonda keçirilən Beynəlxalq konqresində "*Elektrik intiqalı və avtomatlaşdırılmış sənaye qurğuları terminləri lüğəti"* (azərbaycanca-rusca-ingiliscə) əsasında avtomatik idarəetmə sahəsi üzrə çoxdilli lüğətin hazırlanması təklifi irəli sürülmüşdür. Ümumdünya Avtomatik idarəetmə Federasiyasının təklifinə əsasən müvafiq lüğətin hazırlanmasını dörd respublikanın – Azərbaycan, Özbəkistan, Türkmənistan və Qırğızıstanın alim-mütəxəssisləri öz öhdələrinə

götürmüşdülər. Lüğətin ərsəyə gəlməsi, tərtibi və redaktəsində akademik A.Əfəndizadə (rus və ingiliscə sözlüyü) əhəmiyyətli rol oynamış və bu istiqamətdə mühüm xidmətləri olmuşdur. Digər türk dövlətlərinin mütəxəssislərindən isə K.Alımkulov (qırğızca sözlüyü), A.Berdiyev və A.Seyidov (türkməncə sözlüyü), Z.Kazımzadə (rusca sözlüyü), M.Xamudxanov və S.Məcidov (özbəkcə sözlüyü) lüğətin tərtibçiləri idi.

Qeyd edək ki, həmin dönəmlərdə elmi və texniki nailiyyətlərin nəticəsində proqramlı iri qurğular yaradılmışdır. Bu cür qurğuların texniki və iqtisadi baxımdan optimal rejimlərdə fəaliyyəti bilavasitə avtomatik idarəetmə sistemlərinin tətbiqi ilə şərtlənirdi.

İdarəetmə avtomatikasının inkişafı ilə bərabər idarəetmə nəzəriyyəsi də təkmilləşir, yeni elm sahələri inkişaf edirdi. Avtomatika nəzəriyyəsi və texnikası ilə bağlı yeni anlayışlar, terminlər yaranırdı ki, bu terminlər müvafiq elmi nəzəriyyənin inkişaf tələblərinə uyğunlaşmalı idi. Bu baxımdan SSRİ-dəki türk dillərində avtomatik idarəetmə üzrə terminologiyanın yaradılması, formalaşdırılması və terminoloji lüğətin tərtib edilməsi müstəsna əhəmiyyət kəsb edən bir hadisə idi. Bu lüğət Azərbaycan, özbək, xüsusilə qırğız, türkmən, rus və ingilis dillərində nəşr edilən texniki ədəbiyyatdan səmərəli istifadə etməyə imkan verirdi.

Lüğətə elmi-texniki dərsliklərdə, ədəbiyyatda, mətbuatda işlənərək sabitləşən 2750 termin daxil edilmişdir. Lüğət mühəndis-texniklər, elmi işçilər və ali məktəb tələbələri üçün nəzərdə tutulmuşdur. Burada hər terminin sıra nömrəsi göstərilməklə əvvəlcə rus dilində, sonra isə rusca hər terminin aşağısında ingiliscə bu sözlərin oxunmasını asanlaşdırmaq üçün beynəlxalq transkripsiyası, qarşısında isə azərbaycanca, qırğızca, türkməncə və özbəkcə müvafiq qarşılıqları qeyd olunmuşdur. Məsələn,

293	Взаимная спектральная плотность	A. Qarşılıqlı spektral sıxlıq К. Өз ара спектрлик тыгыздык Т. Өзара спектрал дынызлыгы У. Ўзаро спектрал зичлик
	Mutual spectral density (mju:tjuəl spectrəl densıtı)	(Əfəndizadə, 1977: 66)

Lüğətin sonunda ingilis dilində qısaltmalar və müvafiq şərti işarələr təqdim edilmiş, qarşısında isə onların rus, Azərbaycan, türkmən, özbək dillərində açılışı verilmişdir. Məsələn, *A.R.C. Automatic Remote Control*, R. Автоматическая дистанционное управление, A. Məsafədən avtomatik idarəetmə, K. Автоматтык аралыктан башкаруу, T. Автоматик аралыкдан доландырма, У. Автоматик масофадан бошкариш.

1978-ci ildə professor U.S.Kəngərlinski və C.X.Kəngərlinskaya "*Rusca-azərbaycanca-ingiliscə radioelektronika terminləri lüğəti*"ni tərtib etmişdilər. Bu lüğətə radioelektronikanın müxtəlif sahələrini əhatə edən təxminən 3000 ən vacib termin daxil edilmişdir. Terminlər rus, Azərbaycan və ingilis dillərində ardıcıl olaraq üç sütunda təqdim olunmuş və rusca terminlərin müvafiq sıra nömrələri qeyd edilmişdir. SSRİ-də radioelektronika sahəsinə aid elmi-texniki ədəbiyyat əsasən rus dilində olduğundan lüğətdə ilk olaraq rusca terminlər verilmişdir. Məsələn, 973 *Лампа четырехэлектродная* – dördelektrodlu lampa – four-element tube; 2582. *Ход холостой* – yüksüz işləmə – free running; 2092 *Смещение сверхзвуковое* – ifrat səs (ultrasəs) sürüşməsi və s.

Azərbaycan dilindən rus və ingilis dillərinə, eləcə də ingilis dilindən Azərbaycan və rus dillərinə tərcümə prosesində lüğətdən istifadəni asanlaşdırmaq üçün terminlər Azərbaycan və ingilis dillərində əlifba sırası ilə düzülmüşdür.

Müvafiq üçdilli (rus-Azərbaycan-ingilis) lüğətdə beynəlmiləl terminlər olduğu kimi saxlanılmışdır: *azimut, anod, detektor, diapazon, dempfer, deşifrator, diod, lümen, skiatron (qara izli boru), neytron, trimmer, tumbler, ştegger* və s.

Lüğətin sonunda radioelektronikaya aid ingilis ədəbiyyatında istifadə olunan müəyyən terminlərin ingilis dilindəki ixtisarları verilmişdir. Məsələn, *APC, ap* (automatic phase control) – fazanın avtomatik tənzimlənməsi (FAT) (Kəngərlinski və Kəngərlinskaya, 1978:169); *VSWR, v.s.w.r* (voltage standing-wave ratio) – gərginliyin durğun dalğa əmsalı (Kəngərlinski və Kəngərlinskaya, 1978:190).

Böyük Oktyabr sosialist inqilabına qədər Azərbaycan dilində riyaziyyat terminlərinin sistemləşdirilməməsi, tərtib edilməməsi səbəbindən məktəblərdə daha çox ərəb və fars dillərinə məxsus riyaziyyat terminlərindən istifadə olunmuşdur. 1979-cu ildə Azərbaycan SSR EA Riyaziyyat və Mexanika İnstitutu tərəfindən H.Ağayev, F.Maqsudov, Q.Mustafayevin tərtibatçılığı ilə "*Riyaziyyat terminləri lüğəti*" (ingiliscə-rusca-Azərbaycanca) nəşr olunaraq oxucuların istifadəsinə verilmişdir.

Lüğətin tərtibi zamanı bu sahə ilə bağlı Azərbaycan dilinə tərcümə edilmiş kitablardan, eləcə də mövcud sözlüklərdən geniş istifadə olunmuşdur. Lüğət klassik riyaziyyat terminləri ilə bərabər hesablama riyaziyyatı, riyazi məntiq, kibernetika, riyazi statistikaya aid əsas anlayış və terminləri əhatə etmişdir.

Terminoloji lüğət tərtib edilərkən əsasən aşağıdakı prinsiplər gözlənilmişdir:

a) Bəzi alınma riyaziyyat terminləri və onların Azərbaycan dilində qarşılığı paralel şəkildə verilmişdir. Məsələn, *analogous - analoji, biradlı, oxşar; annihilator - annulyator, yoxedici; bimodal - ikitəpəli, bimodal; confinal - konfinal, eyni sonlu; conservation - konservasion, saxla(n)ma; contrast - təzad, ziddiyyət - kontrast; cardinal - baş, əsas, kardinal*.

b) Terminlər ingilis-rus-Azərbaycan dillərində verilsə də, istifadə edərkən Azərbaycan dilində yazılmasına üstünlük verilmişdir. Məsələn, *correction* - корректность - korrektlik; *cybernetics* - кибернетика - kibernetika; *cohomology* - когомология - kohomologiya; *epimorphism* - эпиморфизм - epimorfizm; *function* - функция - funksiya; *randomize*-рандомизировать - randomizələmək; *geocentric* - геоцентрический-geosentrik; *entropy* - энтропия - entropiya; *correlation* - корреляция - korrelasiya.

c) Lüğət tərcümə prinsipinə əsasən tərtib edildiyi üçün terminlərin izahı verilməmişdir.

d) Kitabda ingilis dilində sifət əmələgətirmə prinsipindən *algebraic form - алгебраическая форма - cəbri forma*; *combinatorial topology - комбинаторная топология - kombinatorial topologiya; scalar curvature - скалярная кривизна - skalyar əyrilik* və s. istifadə edilmişdir.

e) Lüğətdə riyazi sahələrlə bağlı daxil edilmiş ingiliscə terminlər əlifba sırası ilə düzülmüş və bu sözlərin qarşısında ingilis dilində hansı nitq hissəsinə aid olduğu nitq hissəsinin baş hərfi qeyd edilmişdir. Məsələn, *theorem* n.; *axial* a.; *augment* v.; *asymmetrically* adv. və s.

f) Əlifba sırası ilə düzülmüş ingiliscə terminlər ərəb rəqəmi ilə nömrələnmiş, həmin sözlərin rus və Azərbaycan dilində tərcümələri isə nömrələnmiş bu sözlərin sağ tərəfində eyni sətirdə yazılmışdır. Məsələn, 272. *continuous a. - непрерывный, - kəsilməz, kəsilməyən*; 114. *binary digit – двоичный разряд – ikilik mərtəbə; 173. division n. – деление – bölmə; 63. finiteness n.*

– конечность – sonluluq və s. Qeyd edək ki, digər lüğətlərin tərtibi prinsipindən fərqli olaraq, bu lüğətdə terminlərin nömrələnməsi hər bir hərf bölməsi üzrə ayrıca aparılmışdır.

g) Terminoloji vahidlər həm əsas, həm də törəmə terminlər üzrə sistemləşdirilmişdir. Məsələn, *formal*: formal aksiomlaşdırma, formal Li qrupu, formal məntiq, formal qüvvət sırası; *sabit*: sabit əmsalı, sabit sistem, sabit cəmli oyun, sabitin tənzim olunması (Ağayev və b., 1979:64); *inteqrator*: inteqrallama bloku, cərəyan inteqratoru, elektron inteqratoru, ideal inteqrator, hasil inteqratoru, cəmləyici inteqrator (Ağayev və b., 1979:163) və s.

Nəticə. 1960-70-ci illərdə texniki terminoloji lüğətlərin təhlili göstərir ki, texniki terminologiyanın sistemləşdirilməsi istiqamətində əhəmiyyətli elmi-metodoloji işlər görülmüşdür. Lüğətlərin əhatə etdiyi – rabitə, fizika, riyaziyyat, kənd təsərrüfatının mexanikləşdirilməsi, sənaye qurğularının avtomatlaşdırılması, radioelektronika sahələri dövrün əsas elmi inkişaf istiqamətlərini göstərir. Terminlərin qarşısında nömrələrin qoyulması bu leksik vahidlərin sistemli şəkildə qruplaşdırılmasına, istifadə imkanlarının genişlənməsinə şərait yaratmışdır. Lüğətlərdə terminlərin bir çox dillərdə verilməsi isə tərcümə prosesinin məhsuldarlığının artmasını göstərir. Apardığımız təhlillər göstərir ki, bu dövrlərdə nəşr olunan texniki terminoloji lüğətlər Azərbaycan elmi və ədəbi dilinin, o cümlədən milli terminologiyanın inkişafında əhəmiyyətli bir dönüş nöqtəsi olmuş və müasir terminologiya üçün də nəzəri baxımdan mühüm baza rolunu oynamışdır.

ƏDƏBIYYAT

1. Abdullayev H.B., Abdullayev M.A., Xəlilov Ə.X., İmanov L.M., Məmmədov K.P., Kərimov İ.G., Talibi M.Ə., Məhərrəmova F.Q. (1965). *Fizika terminləri lüğəti*. Bakı: Azərb. SSR EA, 239 s.
2. Ağayev H., Maqsudov F., Mustafayev Q. (1979). *Riyaziyyat terminləri lüğəti (ingiliscə-rusca-azərbaycanca)*. Bakı: Elm, 344 s.
3. Əfəndizadə A. (1966). *Elektrik intiqalı və sənaye qurğularının avtomatlaşdırılması terminləri lüğəti (azərbaycanca-rusca-ingiliscə)*. Bakı: Azərb. SSR EA, 154 s.
4. Əfəndizadə A., Alımkulov K., Berdiyev A., Seyidov A., Kazımzadə Z., Xamudxanov M., Məcidov S. (1977). *Avtomatik idarəetmə üzrə terminologiya lüğəti: (rusca - ingiliscə - azərbaycanca - qırğızca - türkməncə - özbəkcə)*. Bakı: Elm, 642 s.
5. Əhmədov N.M., Məmmədov S.F., Bağırov S.H., Bağırzadə M.M. (1963). *Kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsinə dair texniki terminlər lüğəti*. Bakı: Azərb. SSR EA, 49 s.
6. Kəngərlinski U.S., Kəngərlinskaya C.X. (1978). *Rusca-azərbaycanca-ingiliscə radioelektronika terminləri lüğəti*. Bakı: Maarif, 191 s.
7. Tağıyev Q.M., Mirzəbəyov İ.S. (1966). *Rabitə terminləri lüğəti*. Bakı: Azərb. SSR EA, 172 s.